# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 35** **Bakı şəhəri, 29 yanvar 2022-ci il**

***1 nömrəli Bakı Tibb Kollecinin, 2 nömrəli Bakı Baza Tibb Kollecinin, Ə.Əliyev adına Sumqayıt Tibb Kollecinin, Gəncə Tibb Kollecinin, Mingəçevir Tibb Kollecinin, Şəki Tibb Kollecinin, Lənkəran Tibb Kollecinin, Cəlilabad Tibb Kollecinin, Quba Tibb Kollecinin və Saatlı Tibb Kollecinin yenidən təşkili haqqında***

"Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının 2.5.2-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** 1 nömrəli Bakı Tibb Kolleci publik hüquqi şəxs statusuna malik olan 1 nömrəli Bakı Tibb Kollecinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**2.** 2 nömrəli Bakı Baza Tibb Kolleci publik hüquqi şəxs statusuna malik olan 2 nömrəli Bakı Baza Tibb Kollecinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**3.** Ə.Əliyev adına Sumqayıt Tibb Kolleci publik hüquqi şəxs statusuna malik olan Ə.Əliyev adına Sumqayıt Tibb Kollecinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**4.** Gəncə Tibb Kolleci publik hüquqi şəxs statusuna malik olan Gəncə Tibb Kollecinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**5.** Mingəçevir Tibb Kolleci publik hüquqi şəxs statusuna malik olan Mingəçevir Tibb Kollecinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**6.** Şəki Tibb Kolleci publik hüquqi şəxs statusuna malik olan Şəki Tibb Kollecinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**7.** Lənkəran Tibb Kolleci publik hüquqi şəxs statusuna malik olan Lənkəran Tibb Kollecinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**8.** Cəlilabad Tibb Kolleci publik hüquqi şəxs statusuna malik olan Cəlilabad Tibb Kollecinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**9.** Quba Tibb Kolleci publik hüquqi şəxs statusuna malik olan Quba Tibb Kollecinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**10.** Saatlı Tibb Kolleci publik hüquqi şəxs statusuna malik olan Saatlı Tibb Kollecinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**11.** Bu Qərarın 1-10-cu hissələrində nəzərdə tutulmuş publik hüquqi şəxslərin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

11.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

11.1.1. publik hüquqi şəxsin yenidən təşkili və ləğv edilməsi;

11.2. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə:

11.2.1. bu Qərarın 11.1-ci bəndində qeyd edilənlər istisna olunmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respub-likası Qanununun 8.2-ci maddəsi ilə publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

12. Bu Qərarın 1-10-cu hissələrində nəzərdə tutulmuş publik hüquqi şəxslər "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək, 1 nömrəli Bakı Tibb Kolleci, 2 nömrəli Bakı Baza Tibb Kolleci, Ə.Əliyev adına Sumqayıt Tibb Kolleci, Gəncə Tibb Kolleci, Mingəçevir Tibb Kolleci, Şəki Tibb Kolleci, Lənkəran Tibb Kolleci, Cəlilabad Tibb Kolleci, Quba Tibb Kolleci və Saatlı Tibb Kolleci öz fəaliyyətlərini davam etdirsinlər.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2022.- 1 fevral.- S.8.